**Nihad Ramiz oğlu Hüseynov**

**UOT: 334.7:334.722; JEL:F41; F43; J23; M13; M21.**

# Azərbaycanda turizm müəssisələrinin və xidmətlərinin inkişaf proseslərinin təhlili və qiymətləndirilməsi

***Xülasə***

*Məqalədə Azərbaycanda turizm müəssisələrinin və xidmətlərinin inkişaf proseslərinin təhlili və qiymətləndirilməsi tədqiq olunmuşdur. Turizm müəssisələrinin səmərəlilik problemləri və həlli yolları araşdırılmışdır. Turizmin inkişafına mane olan problemlərə diqqət çəkilmiş və inkişaf proseslərinin intensivləşdirilməsinin vacibliyi bildirilmişdir. Turizm xidmətlərinin çeşidinin qiymətləndirilməsi və keyfiyyətinin artırılması məsələlərinə toxunulmuşdur. Ölkədə mövcud olan turizm potensialından və onun səciyyəvi xüsusiyyətlərindən səmərəli istifadənin məhsuldar mexanizmlərinin hazırlanmasının vacibliyi əsaslandırılmışdır. Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin vacibliyi ön plana çəkilmişdir. Turistlərin məmnunluğuna və onların istehlak tələblərinə cavab verən turist xidmətlərinin bütün ilboyu ərzində təşkili məsələləri baxılmışdır. Turizm sektorunun fəaliyyətinin gücləndirilməsi üçün dövlət dəstəyi mexanizmlərinin hazırlanması və tətbiqinin vacibliyi bildirilmişdir. Regionlarda turizm potensialından istifadənin müasir aspektləri araşdırılmışdır. Ölkə regionlarında turizmin inkişafının sürətləndirilməsini əngəlləyən problemlər açıqlanmış və onların həlli yolları göstərilmişdir. Ümumilikdə, yaxın perspektivdə Azərbaycanda turizm müəssisələrinin və xidmətlərinin inkişaf prosesləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *turizm sektoru, turizm müəssisələri, turizm potensialı, turizm müəssisələrinin rəqabətlilik problemləri, turist-rekreasiya xidmətləri, turizm müəssiələrinin səmərəlilik problemləri, regionlarda turizm müəssisələri, turizm müəssisələrinin inkişaf perspektivləri*



## Giriş

Azərbaycanda turizmin inkişafı strateji əhəmiyyət kəsb edən vəzifələrdən biridir. Ümumilikdə götürdükdə turizm sektoru dünyada önəmli yer verilən iqtisadiyyat sahəsi kimi qiymətləndirilir. Dünyanın çoxlu sayda ölkələrində turizm əsas gəlir mənbəyi kimi baxılmaqdadır. Azərbaycanla strateji əməkdaşlıq əlaqələrinə və münasibətlərinə malik olan qardaş Türkiyədə və qonşu Gürcüstanda turizm sektorunun imkanlarından maksimum səmərəli səviyyədə istifadə edilməsi təcrübəsi toplanmışdır. Təsadüfi deyildir ki, həmin ölkələrə 100 minlərlə turist axını gəlib getməkdədir və hər iki ölkədə turizm müəssisələrinin, turizm infrastrukturunun inkişafına xüsusi diqqət yetirilir və bu sahənin inkişafının intensivləşməsi istiqamətində təsirli tədbirlər görülür. Bu ölkələrdə turizm müəssisələri yerli resurslardan səmərəli istifadə olunmasında, qarşılıqlı əlaqələrə malik iqtisadiyyat sahələrinin inkişaf etdirilməsində, xüsusilə xidmət sektorunun inkişafının genişləndirilməsində, ərzaq məhsullarının istehsalının artırılmasında, yeni iş yerlərinin yaradılmasında, məşğulluğun gücləndirilməsində, insan kapitalından təyinatı üzrə istifadə edilməsində, milli dəyərlərin və milli mətbəxin üstün və özünəməxsus xüsusiyyətlərinin təbliğ edilməsində, dünyada yayılmasında önəmli funksiyaları yerinə yetirirlər. Bundan əlavə, turizm sektorunda kiçik və orta biznesin inkişafının sürətləndirilməsi hesabına, ölkədə mövcud olan turizm potensialından və ehtiyatlarından daha çevik istifadə edilməsinə münbit şərait yaratmaq mümkündür. Belə ki, kiçik turist müəssisələri daha operativliyi, turistlərin tələblərinə uyğun xidmətlərin yeni çeşidlərinin yaradılmasında çevikliyi, qiymətlərin əlçatanlığı baxımından

© *Nihad Ramiz oğlu Hüseynov Sumqayıt Dövlət Universiteti, doktorant. E-mail: nihadhuseyn@mail.ru*
©*AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

turistlər üçün cəlbedici hesab olunurlar və bu cür müəssisələr yeni turizm xidmətlərinin yaradılmasında daha çox fəallıq göstərirlər [9]. Amma, müasir dövrdə yeni qlobal çağırışların ortaya çıxması, qlobal təsirin artması səbəbindən turizm müəssisələrinin mövcud mexanizmlərinin yenilənməsi vacib şərtlərdəndir. Bunun üçün, turizm müəssisələri özlərinin rəqabət üstünlüklərinin formalaşdırılmasına və inkişaf etdirilməsinə ciddi önəm verməli, fəal şəkildə dünya təcrübəsini mənimsəməli, turizm bazarının tələblərinə uyğun fəaliyyət strategiyası formalaşdırmalıdırlar. Belə ki, hər bir rəqabət elementi turizm bölgəsində özünəməxsusluğu ilə fərqlənir. Dünya təcrübəsində müəyyən turizm maraqları ətrafında formalaşdırılmış populyar və turistləri intensiv şəkildə cəlb edən bu kimi turizm məkanları mövcuddur. Amma, bunun üçün müasir tələblərə cavab verən turizm infrastrukturunun və xidmət obyektlərinin yaradılması, turizm müəssisələrinin təşkili, onların rəqabət qabiliyyətinin yüksəldilməsi tələb olunur. Turizm müəssisələri dövrün tələbinə uyğun şəkildə çevik və məhsuldar fəaliyyət alətləri ilə fərqlənməlidirlər [8].

**Azərbaycanda turizm müəssisələrinin fəaliyyətinin və xidmətlərinin təhlili**

Son illərdə Azərbaycanda iqtisadiyyatın diversifikasiyalaşdırılması və onun strukturunun təkmilləşdirilməsi istiqamətində önəmli addımlar atılmış, islahatlar dərinləşdirilmiş və xüsusilə, iqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətində kompleks və sistemli tədbirlər görülmüş, hazırda bu istiqamətdə reallaşdırılan tədbirlər intensiv fazaya keçmişdir. Sosial-iqtisadi islahatlar dövrün tələbi və qlobal çağırışlara adekvat olaraq ortaya çıxan vacib tədbirlər kompleksi kimi diqqət çəkir. Belə ki, ölkəmizdə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, əhalinin gəlirlərinin artırılması, iqtisadi inkişaf potensialdan səmərəli istifadə olunması sahəsində prioritet vəzifələr müəyyənləşdirilmişdir. Milli iqtisadiyyatın inkişafının yeni hədəfləri və strateji aspektləri öz əksini ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"ndə tapmışdır [7]. Bu vəzifələrin yerinə yetirilməsi üçün turizm şirkətlərinin fəaliyyətinin dövrün tələblərinə uyğun şəkildə tənzimlənməsi, turizm sektoruna dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsi və onların səmərəliliyinin artırılması, turizm müəssisələrinin intensiv inkişafına mane olan baryerlərin aradan qaldırılması və turizm fəaliyyətinin stimullaşdırılması, motivasiyalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Eyni zamanda turizm potensialı güclü olan bölgələrdə infrastrukturun inkişaf etdirilməsi məsələlərinə dövlət tərəfindən daha böyük dəstəyin verilməsi və bununla əlaqədar olaraq zəruri tədbirlərin görülməsi planlı və nizmlı şəkildə həyata keçirilməlidir [2]. Hazırda və yaxın perspektivdə ölkəmizdə iqtisadi fəallığın artırılmasında və əlavə dəyərin yaradılmasında mühüm əhəmiyyət kəsb edən iqtisadiyyat sahələrindən biri kimi turizm sektoru və onun müəssisələri yerli və xarici investorlar üçün cəlbedicilik baxımından diqqət mərkəzindədirlər. Belə ki, ölkəmizdə turizm təsərrüfatı və müalicə-istirahət kompleksinin geniş miqyasda inkişafı üçün hər cür təbii və iqtisadi potensial vardır. Turizm sektorunun və onun müəssisələrinin intensiv inkişaf etdirilməsi üçün kifayət qədər təbii və iqtisadi resurslar, o cümlədən əmək ehtiyatları mövcuddur. Turizm sənayesini başqa sahələrdən əsasən fərqləndirən xüsusiyyətlərdən biri də bu sektora yönəldilən maliyyə vəsaitlərinin və investisiyaların tez bir zamanda böyük mənfəətlə geri qayıtmasıdır. Bu sahənin ölkəmizdə geniş miqyasda inkişafı üçün xeyli zəngin imkanlara malik olan müalicə-istirahət mərkəzlərinin yaradılması vacib məsələlərdən biri kimi qiymətləndirilir. Məhz buna görə də 2013-cü il Azərbaycanda "Turizm ili" kimi yadda qalmış və ölkədə rəqabət qabiliyyətli, dayanıqlı, səmərəli fəaliyyət göstərən turizm müəssisələri şəbəkəsi yaradılmasına əsaslı təkan verilmişdir [1].



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ölkədə turizm müəssisələrinin fəaliyyətinin və xidmətlərinin təhlilini daha əyani baxmaq üçün bir sıra göstəricilərə diqqət yetirməyi vacib saymışıq. Şəkil 1-də turizm sektorunda əlavə dəyərin ölkə ÜDM-də xüsusi çəkisi öz əksini tapmışdır.

**Şəkil 1.**

**Azərbaycanda turizm sektorunda əlavə dəyərin ölkə ÜDM-də xüsusi çəkisi (%)**




Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 1-in təhlili əsasında baxdıqda, 2013-2018-ci illərdə turizm sektorunda formalaşdırılan əlavə dəyərin ölkə ÜDM-də xüsusi çəkisi 3,6 %-dən 4,3 %-dək artmışdır [4]. Şəkil 2-də ölkə üzrə əhaliyə göstərilən ödənişli xidmətlərin strukturunda turizm xidmətlərinin rolunun təhlili üçün 2013-2018-ci illərdə bu sahədə dinamika verilmişdir.

**Şəkil 2.**

**Azərbaycanda əhaliyə göstərilən ödənişli turist-ekskursiya xidmətlərin dinamikası (mln. manat)**




Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır.

2013-2018-ci illərdə əhaliyə göstərilən ödənişli turist-ekskursiya xidmətlərinin həcmi 2 dəfədən çox artmış və 2018-ci ilin yekununda 295 mln. manat təşkil etmişdir [3]. Bizə görə, bu göstərici ölkədəki mövcud turizm müəssisələrinin və obyektlərinin real fəaliyyətini və potensialını tam olaraq əks etdirmir, çünki ölkəmizin bir sıra bölgələrində ilboyu kifayət qədər fəal şəkildə xidmətlər göstərən turizm müəssisələri və obyektləri vardır. Şəkil 3-də bu göstəricinin daha əyani müqayisəsi üçün, həmin illərdə ölkədə əhaliyə göstərilən ödənişli xidmətlərdə turist-ekskursiya xidmətlərinin xüsusi çəkisini təhlil etmişik və 2013-2018-ci illərdə 2,21 %-dən 3,23 %-dək artım müşahidə olunmuşdur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 3.**

**Azərbaycanda əhaliyə göstərilən ödənişli xidmətlərdə turist-ekskursiya xidmətlərinin xüsusi çəkisi (%)**




Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycanda turizm müəssisələrinin fəaliyyətinin şaxələndirilməsi, rəqabətqabiliyyətli müəssisələrinin yaradılması, onların inkişaf etdirilməsi, xidmətlərin strukturunun diversifikasiyalaşdırılması və xüsusilə, keyfiyyətinin artırılması, əlçatanlığının təmin olunması üçün mövcud potensialdan daha səmərəli istifadə mexanizmlərinin hazırlanması və tətbiqi tədbirlərinin görülməsinə zərurət vardır. Turizm müəssisələrinin və xidmətlərinin səmərəlilik potensialı obyektiv olaraq qiymətləndirilməli, mümkün inkişaf perspektivləri dəyərləndirilməli, sistemli və ardıcıl şəkildə onların reallaşdırılması təmin edilməlidir.

**Azərbaycanda turizm müəssisələrinin və xidmətlərinin səmərəlilik potensialının qiymətlədirilməsi və inkişaf perspektivləri**

Ölkəmizdə turizm müəssisələrinin və xidmətlərinin səmərəlilik potensialının araşdırılması, mövcud ehtiyatlarının üzə çıxarılması, onlardan məhsuldar formada istifadə olunması, turizm xidmətlərinin keyfiyyət və kəmiyyət parametrlərinin balanslaşdırılması, turist məmnunluğunun təmin edilməsi vacib şərtlərdəndir. Belə ki, turizm müəssisələrinin bütün ilboyu sabit fəaliyyət göstərməsi və səmərəlilik problemlərinin həll edilməsi onların rəqabətqabiliyyətlilik potensialının formalaşdırılmasına imkan verə və əsaslı zəmin ola bilər. Turizm müəssisələrinin fəaliyyətini gücləndirməklə yeni iş yerlərinin yaradılması, həmin müəssisələrin yerləşdikləri ərazilərdə və regionlarda əhalinin iqtisadi fəallığının artırılması mümkündür. Analitik təhlilçi N.Məmmədova hesab edir ki, Azərbaycanda turizm müəssisələrinin və bütövlükdə turizm sektorunun iqtisadi uğurunun açarı kimi bir sıra problemlərin həll edilməsi vacibdir. Bu problemlərə: ölkə turizminin xarici investorlara və potensial turistlərə zəif təqdimat edilməsi; turizm sektorunda və turizm müəssisələrində bacarıqlı, peşəkar kadrların çatışmazlığı; turizm müəssisələri tərəfindən ölkəyə gələn turistlər üçün hazırlanan əyani vəsaitlərin azlığı; turizm obyektlərində qiymətlərin baha olması və əlçatanlığın təmin edilməməsi; turizm xidmətlərinin zəif elektronlaşdırılması və bu sahədə beynəlxalq təcrübənin tətbiqinin tam əhatə edilməməsi; turizmin bir istiqamət üzrə cəmləşməsi və alternativ turizm isatiqamətlərinin, şəhər turizmi ilə bərabər, rayon-kənd turizminin inkişafının intensiv olmaması və turizm sektorunda və turizm müəssisələri səviyyəsində "dövlət-özəl sektor əlaqələri"nin zəifliyi [5]. Hesab edirik ki, bu kimi problemlərin aradan qaldırılması, ölkənin turizm müəssisələrinin daha üstün rəqabət alətlərinə malik olmasına imkan verərdi. Xüsusilə, regionlarda turizmin inkişafı üzrə iri investisiya layihələrinin hazırlanması və reallaşdırılması tələb olunur. Belə ki, turizm sektorunun Bakı



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

regionu üzrə cəmləşməsi regionların inkişafına əngəl törədir. Mövsümlik amilini aradan qaldırmaq üçün yalnız yay mövsümündə deyil, digər mövsümlər üçün də turizm imkanları yaradılmalıdır, bu həm də qiymətləri aşağı salacağından aşağı gəlirli insanların da turizm xidmətlərindən istehlakına imkan yaradacaqdır [6].

Ölkədə turizm müəssisələrinin daha geniş şəbəkəsinin yaradılması və xidmətlərinin strukturunun diversifikasiyalaşdırılmasında regionlarda – iqtisadi rayonlarda faktiki turist xidmətləri, həmçinin rekreasiya təyinatlı xidmətlərin geniş spektrdə göstərilməsi və turizm sektorunun fəaliyyətinin daha da genişləndirilməsi, əlavə olaraq yeni dəyər mənbələrinin formalaşdırılması, iş yerlərinin yaradılması, turizm infrastrukturunun müasir standartlar səviyyəsinə qaldırılması diqqət çəkir. Bununla belə, hələ də ölkəyə gələn turistlərin əhəmiyyətli hissəsi Bakı şəhəri ilə əlaqəlidir, amma bu sahədə dolğun rəsmi statistika məlumatlarının olmaması da, tam şəkildə təhlilin aparılmasını çətinləşdirir və bunlar öz əksini Cədvəl 1-də tapmışdır.

**Cədvəl 1.**

**Azərbaycanda qəbul edilmiş turistlərin iqtisadi rayonlar üzrə sayı (nəfər)**

| İqtisadi rayonlar | 2006 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə - cəmi** | 14 472 | 17 641 | 23 440 | 10 605 | 10657 | 2 009 | 8 949 | 13 455 | 12 777 |
| **Bakı şəhəri** | 11 551 | 17 370 | 23 290 | 10 440 | 10657 | 2 009 | 8 949 | 9 316 | 10 103 |
| **Abşeron iqtisadi rayonu** | 857 | 271 | 150 | 165 | - | - | - | 5 | 386 |
| **Gəncə-Qazax iqtisadi rayonu** | - | - | - | - | - | - | - | 4 069 | 2 088 |
| **Lənkəran iqtisadi rayonu** | - | - | - | - | - | - | - | 50 | - |
| **Aran iqtisadi rayonu** | - | - | - | - | - | - | - | 15 | 200 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | - | - | - | - | - | - | - | - | - |
| **Quba-Xaçmaz iqtisadi rayonu** | 1 854 | - | - | - | - | - | - | - | - |
| **Dağlıq Şirvan iqtisadi rayonu** | 210 | - | - | - | - | - | - | - | - |

Mənbə: Azərbaycanda turizm. Statistik məcmuə, 2019, s.47.

Cədvəl 1-də verilmiş və Azərbaycanda qəbul edilmiş turistlərin iqtisadi rayonlar üzrə sayının təhlilindən yanaşdıqda, görmək mümkündür ki, əgər 2006-cı ildə Azərbaycanda qəbul edilmiş turistlərin sayında Bakı şəhərinin payı 79,8 % olmuşdursa, bu göstərici 2010-cu ildə 98,5 %, 2017-ci ildə 69,2 % və 2018-ci ildə 79,1 % təşkil etmişdir. Cədvəl 2-də Azərbaycanda iqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum göstəriciləri verilmişdir. Cədvəl 2-nin təhlilindən baxdıqda, 2006-2018-ci illərdə ölkə üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum potensialı 89 %-ə yaxın artmış və 2018-ci ilin yekununda 46,7 min təşkil etmişdir. Bu göstəricidə Bakı şəhərinin payı 40 %-ə yaxın olmuşdur, Quba-Xaçmaz iqtisadi rayonunun payı – 22,4 %, Şəki-Zaqatala iqtisadi rayonunun payı – 9,5 % və s. təşkil etmişdir. Hesab edirik ki, regionlarda kiçik və orta sahibkarlıq subyektlərinin turizm sektoruna marağının artırılması tədbirləri daha da genişləndirilməlidir və bu istiqamətdə son illərdə özəl sahibkarlıq subyektlərinin sayı da artım nümayiş etdirmişdir. Şəkil 4-də Azərbaycanda turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2016-2017-ci illər üzrə sayı verilmişdir və göründüyü kimi, bu sahədə daha çox özəl müəssisələr fəaliyyət göstərirlər və yeni müəssisələrin yaradılması da özəl sektorla bağlıdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 2.**

**Azərbaycanda iqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum (yer)**

| | 2006 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə - cəmi** | 24 706 | 30 793 | 32 834 | 33 951 | 35 652 | 37 278 | 40 042 | 41 611 | 46 693 |
| **Bakı şəhəri** | 6 927 | 10 040 | 10 217 | 10 521 | 11 792 | 12 779 | 14 020 | 14 861 | 18 637 |
| **Abşeron iqtisadi rayonu** | 1 040 | 1 305 | 1 626 | 1 345 | 1 397 | 1 351 | 821 | 876 | 1 052 |
| **Gəncə-Qazax iqtisadi rayonu** | 5 228 | 1 850 | 2 842 | 3 080 | 2 773 | 3 006 | 2 911 | 2 978 | 3 312 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | 1 014 | 2 180 | 2 203 | 2 374 | 2 469 | 2 583 | 4 469 | 4 308 | 4 432 |
| ***Qəbələ rayonu*** | 215 | 602 | 488 | 488 | 488 | 503 | 2 319 | 2 539 | 2 539 |
| **Lənkəran iqtisadi rayonu** | 1 736 | 2 678 | 2 783 | 2 884 | 3 139 | 2 751 | 2 984 | 3 199 | 3 249 |
| ***Lənkəran rayonu*** | 367 | 411 | 740 | 735 | 750 | 1 110 | 1 322 | 887 | 937 |
| ***Masallı rayonu*** | 1 022 | 1 325 | 1 089 | 1 195 | 1 237 | 1 126 | 1 148 | 1 148 | 1 148 |
| **Quba-Xaçmaz iqtisadi rayonu** | 5 182 | 7 905 | 8 119 | 8 703 | 9 127 | 9 691 | 9 572 | 10 162 | 10 462 |
| **Aran iqtisadi rayonu** | 1 759 | 2 048 | 2 153 | 2 245 | 1 955 | 2 068 | 2 099 | 2 040 | 2 234 |
| **Yuxarı Qarabağ iqtisadi rayonu** | 32 | 30 | 30 | 30 | 30 | 30 | 30 | 30 | 60 |
| **Dağlıq Şirvan iqtisadi rayonu** | 806 | 1 255 | 1 339 | 1 321 | 1 522 | 1 571 | 1 688 | 1 688 | 1 738 |
| **Naxçıvan Muxtar Respublikası** | 982 | 1 502 | 1 522 | 1 448 | 1 448 | 1 448 | 1 448 | 1 469 | 1 517 |

Mənbə: Azərbaycanda turizm. Statistik məcmuə, 2019, s.54.



**Cədvəl 3.**

**Azərbaycanda turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində fəaliyyət göstərən kiçik və orta subyektlər tərəfindən fəaliyyət göstərən sahibkarlıq subyektləri**

| | 2016 | | 2017 | |
|---|---|---|---|---|
| | kiçik | orta | kiçik | orta |
| **Ölkə üzrə - cəmi** | 15390 | 118 | 16762 | 135 |
| **o cümlədən:** | | | | |
| **dövlət mülkiyyəti** | 9 | 9 | 11 | 9 |
| **qeyri-dövlət mülkiyyəti, o cümlədən:** | 15381 | 109 | 15751 | 126 |
| ***xüsusi mülkiyyət*** | 15356 | 102 | 16718 | 117 |
| ***xarici mülkiyyət*** | 17 | 4 | 22 | 5 |
| ***birgə mülkiyyət*** | 8 | 3 | 11 | 4 |

Mənbə: Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə, Bakı, 2018, s.14.

Cədvəl 4-də isə Azərbaycanda 2016-2017-ci illərdə turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində fəaliyyət göstərən kiçik və orta subyektləri tərəfindən göstərilmiş xidmətlərin dəyəri verilmişdir.

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Cədvəl 4.**

**Azərbaycanda turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri tərəfindən göstərilmiş xidmətlərin dəyəri (min manat)**

| | 2016 | | 2017 | |
|---|---|---|---|---|
| | kiçik | orta | kiçik | orta |
| **Ölkə üzrə - cəmi** | 665565,4 | 39365,4 | 768590,0 | 49443,1 |
| **o cümlədən:** | | | | |
| **dövlət mülkiyyəti** | 373,0 | 1604.4 | 320,1 | 1824,6 |
| **qeyri-dövlət mülkiyyəti, o cümlədən:** | 665192,4 | 37731,0 | 768269,9 | 47618,5 |
| ***xüsusi mülkiyyət*** | 664272,6 | 34249,3 | 765301,1 | 41738,6 |
| ***xarici mülkiyyət*** | 748,4 | 2291,1 | 1769,0 | 3819,3 |
| ***birgə mülkiyyət*** | 171,4 | 1190,6 | 1199,8 | 2060,6 |

Mənbə: Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə, Bakı, 2018, s.21.

Cədvəl 4-ün təhlili əsasında baxsaq, 2017-ci ildə ölkədə turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən göstərilmiş ümumi xidmətlərin dəyəri 817,8 mln. manat təşkil etmişdir, müqayisə üçün bu göstərici 2016-cı ildə 705 mln. manat səviyyəsində olmuşdur. Bu artım əsas etibarı ilə qeyri-dövlət mülkiyyətində olan sahibkarlıq subyektlərində formalaşmışdır. Yaxın illərdə turist müəssisələrinin səmərəliliyinin artırılmasında orta səviyyəli sahibkarlıq subyektlərinin rolunun artırılması tədbirlərinin gücləndirilməsinə ehtiyac vardır.



**Nəticə**

Azərbaycanda turizm müəssisələrinin və xidmətlərinin inkişaf proseslərinin sürətləndirilməsi, onların rəqabətqabiliyyətliliyinin artırılması, səmərəlilik problemlərinin həll edilməsi üçün daha çox təsirli tədbirlərin görülməsi və mövcud mexanizmlərinin təkmilləşdirilməsi tələb olunur:

- ölkə ÜDM-də turizm müəssisələrinin xüsusi çəkisinin artırılması istiqamətində optimal fəaliyyət strategiyasının hazırlanması və reallaşdırılması vacibdir;
- strateji yol xəritələri çərçivəsində turizm müəssisələrinin inkişaf etdirilməsi ilə bağlı hədəflərə çatılması üçün ölkədə mövcud olan turizm potensialından daha səmərəli istifadə edilməsinə ehtiyac vardır;
- turizm müəssisələrinin fəaliyyətinin və xidmətlərinin səviyyəsinin obyektiv qiymətləndirilməsi əsasında, bu sahədə mövcud problemlərin məqsədli və mütəmadi monitorinqləri aparılmalı və ortaya çıxan problemlərin sistemli və ardıcıl şəkildə aradan qaldırılması təmin edilməlidir;
- ölkə əhalisinə göstərilən ödənişli xidmətlərdə turist-ekskursiya xidmətlərinin xüsusi çəkisinin artırılması istiqamətində daha təsirli tədbirlərin görülməsi məqsədəuyğundur və turist məmnunluğu amilinə xüsusi önəm verilməlidir;
- Azərbaycanda turizm müəssisələrinin və xidmətlərinin səmərəlilik potensialının qiymətlədirilməsi və inkişaf perspektivlərindən yanaşmaqla, mərkəzi şəhərlərdə və regionlarda müasir və rəqabətqabiliyyətli turizm müəssisələrinin və mərkəzlərinin yaradılmasına yerli investisiyalarla yanaşı, xarici investisiyaların fəal şəkildə cəlb olunması tədbirləri görülməli və ölkəmizdə turizm sektorunun investisiya cəlbediciliyi maksimum şəkildə artırılmalıdır .

## Ədəbiyyat


1. Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: «Turxan» NPB, 2016.
2. Azərbaycan Respublikasında turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri. BMT inkişaf proqramı. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. http://ier.az/uploads/IIETI-UNDP_Turizm-az.pdf.
3. Azərbaycanda ödənişli xidmətlər. Statistik məcmuə, Bakı, 2019.
4. Azərbaycanda turizm. Statistik məcmuə, 2019.
5. Fuad Məmmədov. Turizmin dinamikasi və determinantları: Azərbaycan və dünya təcrübəsi. https://mpra.ub.uni-muenchen.de/77444/1/MPRA_paper_77444.pdf.
6. Məmmədova N. Azərbaycanda turizm sektoru iqtisadi uğurun açarı kimi: problemlər və mülahizələr. Xalq qəzeti. 2015. 9 yanvar. - S.5. http://www.anl.az.
7. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 2016.
8. Лукьянчик С.В. Анализ и повышение конкурентоспособности предприятий в сфере туризма / материалы XII Междунар. науч.-практ. конф. молодых исследователей, Барановичи, 19-20 мая 2016 г. http://rep.barsu.by/handle/data/1766
9. Терентьева Ю.Г. О необходимости повышения конкурентоспособности малого туристского бизнеса в условиях вступления России в ВТО. Российское предпринимательство. 2013. Том 14. № 17.




***Нихад Рамиз оглу Гусейнов***

***Анализ и оценка процессов развития туристических предприятий и услуг в Азербайджане***

***Резюме***

*В статье исследован анализ и оценка процессов развития туристических предприятий и услуг в Азербайджане. С этой целью анализированы проблемы эффективности туристических предприятий и их решения. Отмечена важность интенсификации процессов развития туризма и обращено внимание на проблемы, замедляющие развитие туристических предприятий. Рассмотрены вопросы оценки ассортимента и повышения качества услуг в секторе туризма. Обоснована важность подготовки продуктивных механизмов по эффективному использованию потенциала туристического сектора и специфические особенности его в стране. Выдвинута на передний план важность повышения конкурентоспособности туристических предприятий. Рассмотрены вопросы круглогодичной организации туристических услуг, отвечающих потребительским требованиям. Исследованы современные аспекты использования туристического потенциала в регионах. Раскрыты проблемы, мешающие ускорению развития туризма, и указаны пути их решения в регионах страны. В целом, подготовлены рекомендации и даны предложения по вопросам развития туристических предприятий и услуг в Азербайджане в ближайшей перспективе.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Ключевые слова:*** *сектор туризма, туристические предприятия, потенциал туризма, проблемы конкурентоспособности туристических предприятий, туристическо-рекреационные услуги, проблемы эффективности туристических предприятий, туристические предприятия в регионах, перспективы развития туристических предприятий*

***Nihad Ramiz Huseynov***

***Analysis and evaluation of development processes of tourism enterprises and services in Azerbaijan***

***Summary***

*The analysis and evaluation of development processes of tourism enterprises and services in Azerbaijan is explored in the article. The problems of efficiency of tourist enterprises and their solutions are analyzed with this purpose. The importance of intensification of tourism development processes and problems that slow down the development of tourism enterprises is noted then. Issues of evaluation of assortment and improvement of quality of services in the tourism sector are considered. The importance of preparing productive mechanisms for the effective use of the potential of the tourism sector and its specific features in the country is investigated. The importance of increasing the competitiveness of tourism enterprises is given. The issues of year-round organization of tourist services that meet consumer requirements are considered. Modern aspects of the use of tourism potential in the regions are studied. Problems preventing the acceleration of tourism development are disclosed, and ways to solve them in the regions of the country are investigated. In general, recommendations and proposals on the development of tourism enterprises and services in Azerbaijan in the modern conditions are given in the end of the article.*

***Key words:*** *tourism sector, tourism enterprises, potential of tourism, problems of tourism enterprises competitiveness, tourist and recreational services, problems of tourism enterprises efficiency, tourist enterprises in regions, perspectives of development of tourism enterprises*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 05.12.2019.***
***Çapa qəbul olunub: 09.12.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*